# XIX əsr ədəbiyyatımızın "Tək inci"si

**Sonuncu Qarabağ xanı Mehdiqulu xan Cavanşirin qızı Natəvana həsr edilmiş "Tək inci" adlı sərginin zəngin ekspozisiyası onun yaradıcılığının hərtərəfli şaxələrini dolğun əks etdirirdi. Tədbir Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Natəvanın 190 illiyinin qeyd edilməsi ilə bağlı imzaladığı sərəncama əsasən düzənlənmişdi.**



Azərbaycan Milli İncəsənət Muzeyində sərgilənənlər Natəvanın dövrünü bədii boyalarla əks etdirən nadir nümunələrdən ibarətdir. "Gül dəftəri" adlandırılan albomunda onun qəzəlləri ilə yanaşı, sulu boya və karandaşla çəkdiyi 30-a yaxın rəsmi toplanıb. "Bülbül və qızıl gül", "Sərçələr", "Pərvanə və şam" kimi lövhələri şairənin lirik qəzəlləri ruhunda çəkilmiş illüstrasiyalar kimi diqqət çəkir. "Metex qalası", "Şeyx Sənan dağı", "Narınqala", "Kür qırağı", "Müctəhid bağı" mənzərələri bədii keyfiyyəti ilə yanaşı, tarixi əhəmiyyət kəsb edir.

Altmışa qədər dəyərli sənət əsərinin ziyarətçilərə təqdim olunduğu vernisajda Xan qızına məxsus olan, Azərbaycan Milli İncəsənət Muzeyi, Milli Azərbaycan Tarixi Muzeyi, N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, C.Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, S.Bəhlulzadənin Ev-Muzeyi, Bərdə Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Altay Hacıyevin şəxsi kolleksiyasında saxlanılan şəxsi əşyaları, əlyazmaları, eləcə də Natəvanın heykəlləşmiş obrazını görmək mümkündür.

Xan qızının mövzusu onun həm dahi şəxsiyyət – mədəni və ictimai xadim, həm də gözəl, kübar Azərbaycan qadını kimi, bir çox rəssam və heykəltəraşlarımızın müraciət etdikləri, saysız-hesabsız təsvirlərlə ərsəyə gətirdikləri obrazlar vasitəsilə aktuallığını itirmir. Maral Rəhmanzadə, Oqtay Sadıqzadə, Ömər Eldarov, Altay Hacıyev və başqa sənətkarlarımızın yüksək yaradıcılıq məhsulu kimi ərsəyə gələn Natəvan obrazları sərginin diqqətəlayiq eksponatlarındandır.

İki hissədən ibarət sərginin bədii hissəsində muzeyin direktoru, akademik Rəfael Hüseynov Xurşidbanu Natəvan haqqında danışaraq onun adının mənasının Günəş olduğunu vurğuladı. Dövrünün şair və yazıçıları üçün təşkil etdiyi şeir məclislərindən, incəsənətin müxtəlif növlərində qazandığı uğurlardan, sənətə göstərdiyi qayğıdan söhbət açdı.

Bir daha bildik ki, Natəvan yaradıcılığının coşqun çağları Qarabağ ədəbi məclislərinin fəaliyyət göstərdiyi dövrlə sıx bağlı olub. Firudin bəy Köçərli bu dövrü "XIX əsr ədəbiyyatının xoşbəxt zamanı" adlandırıb. O, Xan qızı Natəvanın Şuşa ədəbi məclislərinin, ümumən, şerimizin inkişafındakı rolundan danışarkən "Qarabağ şairləri nəhəng qartallar kimi Şuşa dağlarının poetik zirvəsində məskən salaraq, öz fövqlərindən poeziyaya ton vermişlər" fikrini obrazlı şəkildə ifadə etmişdir.

Sərginin qonaqları ekspozisiya ilə tanış olaraq, bir daha Natəvan dünyasının işıqlı aurasına düşdülər.

**Fidan HÜQUQQIZI**

Xalq qəzeti .- 2022.- 30 dekabr.- S.11.